# 20 Yanvar Ümumxalq Hüzn Günü qeyd olundu

## Qanlı qırğından şərəfli zirvəyə doğru

Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 20 Yanvar faciəsinin 25 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə baş həkimin müavini Cavanşır Məlikov açmış, 1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecə Sovet ordusunun Azərbaycanda həyata keçirdiyi qanlı qırğın haqqında danışmış, milli azadlığı və öz ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqa görünməmiş divan tutulduğunu qeyd etmişdir.

Sonra cərrahiyyə şöbəsinin müdiri Şirin Muştaqov, pediatriya şöbəsinin müdiri Saleh Aslanov və digərləri çıxış edərək 20 Yanvar qətliamının müstəqillik, istiqlal və hürriyyət uğrunda xalqımızın apardığı milli-azadlıq hərəkatının zirvəsi kimi Azərbaycanın tarixinə həkk olunduğunu söyləmişlər.

Tədbirin sonunda 20 Yanvar şəhidlərinin xatirəsi tədbir iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad edilmişdir.

**Foto S. Umuyevindir.**

## 20 Yanvar faciəsinə həsr edilmiş ədəbi-bədii kompozisiya

20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar olaraq Qəbələ rayon Gənclər və İdman İdarəsinin müvafiq tədbirlər planına əsasən 19 yanvar 2015-ci il tarixdə FHN-nin «N» saylı hərbi hissəsində ədəbi-bədii kompozisiya keçirilmişdir.

İlk öncə tədbir iştirakçıları hərbi hissədə yaradılmış 20 Yanvar faciəsi şəhidlərinin xatirəsinə həsr edilmiş guşəyə baxış keçirmişlər.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra hərbi hissə komandirinin müavini İlham Əliyev tədbiri açıq elan etmiş, tədbirin məqsədi barədə danışmışdır. Daha sonra rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov 20 Yanvar faciəsinin baş vermə səbəbləri haqqında məlumat verdi. O, bu faciəni doğuran səbəbləri açıqlamaqla yanaşı həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan ümummilli lider Heydər Əliyevin Moskvadakı Azərbaycanın daimi nümayəndəliyinə gələrək baş verən hadisəyə öz etirazını bildirməsi və bu faciəyə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra hüquqi siyasi qiymət verildiyini diqqətə çatdırdı.



Sonra Qəbələ şəhər 4 saylı tam orta məktəbin şagirdləri Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı yanvar faciəsinə həsr edilmiş ədəbi-bədii kompozisiya ilə çıxış etmişlər. Hərbi hissənin əsgərləri isə 20 Yanvar faciəsinə həsr edilmiş şeirlər söyləmişlər.

Tədbirin sonunda 20 Yanvar gecəsi baş verən hadisələri əks etdirən sənədli filmin nümayişi olmuşdur.

**M. SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Foto S. Umuyevindir.**

## Şəhidlərimiz yad olundu



Qəbələ şəhər 1 saylı tam orta məktəbində 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr edilmiş tədbir şagirdlərin şəhərin mərkəzindəki Şəhidlər xiyabanına ziyarəti ilə başlandı. IX-XI sinif şagirdləri Vətənin istiqlalı və azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etdilər və onların məzarı önünə gül-çiçək dəstələri düzdülər.

Tədbirin davamı məktəbdə «Dəyirmi masa» arxasında keçirildi. Məktəbin direktoru M. Rüstəmova yığıncağı açaraq Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar faciəsindən 25 il keçdiyindən və məhz bu faciənin uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə aparıb çıxardığından, ölkəmizin müstəqillik və suverenlik əldə etdiyindən danışdı.

Sonra «Dəyirmi masa»-da iştirak edən rayon təhsil şöbəsinin metodistləri N. Nuriyev, Ş. Cavadova T. Qəribova, E. Əsədova, L. Məmmədyarova, V. Tağıyeva, K. Abuşova və IX—XI sinif şagirdləri 20 Yanvar faciəsinin səbəbləri və günahkarları haqqında öz fikirlərini bildirdilər. Çıxışlarda faciənin müşahidəçiləri öz xatirələrini söylədilər, 20 Yanvar gecəsini daim xatırlayacaqlarını, onu törədənlərə öz dərin nifrətlərini bldirdilər.

Sonda təhsil şöbəsinin məsul işçisi Nüsrət Nuriyev tərəfindən yanvar ayının 19-da bütün siniflərdə ilk dərslərin anım gününə həsr edilməsi təklifi verildi.

**Nurdanə ZEYNALOVA,**
**şəhər 1 saylı tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini.**
**Foto S. Umuyevindir.**

## 20 Yanvar faciəsindən 25 il keçdi

Azərbaycan xalqının gurur ünvanına çevrilmiş 20 Yanvar hadisələri 25 il arxada qaldı. Hadisənin başvermə səbəbləri ilə bağlı zaman-zaman müxtəlif fikirlərə, rəylərə rast gəlinsə də, bütün əks mövqelər bir nöqtədə kəsişir: bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, bu müqəddəs amal uğrunda hətta canından belə, keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi.

1990-cı il yanvarın 20-də baş verən faciəli hadisələr süquta uğramaqda olan sovet imperiyasının mənfur repressiya maşınının xalqımıza qarşı törətdiyi amansız cinayət idi. Bir gecədə 130-dan çox dinc insanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 1000-ə yaxın insanın yaralanması, şübhəsiz, xalqımız üçün böyük dərd, faciə idi. Lakin eyni zamanda, bu hadisə xalqımızın milli azadlıq və müstəqəllik uğrunda mübarizəsinin kulminasiya nöqtəsi olmaq, çağdaş tariximizə gurur və şərəf mübarizəsi kimi daxil oldu.

1989-cu ildən etibarən ümumxalq etirazları bütün respublikanı bürüdü və avqust ayından bu proses idarəolunmaz müştəviyə keçməyə başladı. İlin sonunda xalq hərəkatını idarə etməyi üzərinə götürmüş Azərbaycan Xalq Cəbhəsində parçalanma baş verdi. 1990-cı ilin əvvəllərində təşkilat tamamilə iflic vəziyyətinə düşdü. AXC-nin yeni idarə heyəti və məclisi formalaşsa da, təşkilatın rəhbərliyində respublikada baş verən hadisələrə münasibətdə ziddiyyətlər üzə çıxdı. 20 Yanvar faciəsi ərəfəsində AXC faktiki olaraq iki yerə parçalanmışdı, belə bir vəziyyətdə onun hadisələrə nəzarət etmək imkanları yox idi.

Yanvarın 16-dan başlayaraq Bakıda xaotik proseslər baş verir, AXC fəallarının təkidi ilə insanlar müxtəlif yerlərdə istehkamlar qururdular. Hətta paytaxtda imperiyaya məxsus hərbi texnikanın yerdəyişməsinə və hərəkətinə də rast gəlinirdi. Belə bir ağır vəziyyətdə AXC-nin yerləşdiyi qərargahda ikitirəlik hökm sürürdü. Bir hissə xalqı sovet ordusu ilə üz-üzə qoymağa çalışır, digər qrup isə hadisələrə biganə yanaşmaqda davam edirdi. AXC fəalları insanlar arsında təbliğat işi aparmaq, əliyalın vətəndaşları silahlı ordu ilə üz-üzə gəlməkdən çəkindirmək əvəzinə, «azadlıq yalnız qanla alınmalıdır» kimi populist şüarlar irəli sürürdülər. Bunun isə nəticəsi çox ağır oldu.

(Ardı 5-ci səhifədə).